

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 8 (21.669)

13 yanvar 2017-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 12-də Avropa Şurası Parlament Assambleyasının Monitorinq Komitəsinin həmməruzəçiləri Sezar Florin Predanı və Stefan Şennakı qəbul edib.

Görüşdə Azərbaycanda gedən proseslər, siyasi, iqtisadi, humanitar və digər sahələrdə həyata keçirilən islahatlar və bu istiqamətdə atılan addımlar ətrafında geniş fikir mübadiləsi aparılıb.

## Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Zəngin tarixə və çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Naxçıvan Muxtar Respublikası çox mürəkkəb, lakin parlaq inkişaf yolu keçərək Azərbaycanın sosial-iqtisadi və ictimai-siyasi həyatında özünəməxsus yer tutmuş, ölkəmizin inkişafında hər zaman əhəmiyyətli rol oynamışdır.

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurlu icrası nəticəsində bu gün də dinamik inkişaf edən muxtar respublikada infrastrukturun müxtəlif sahələrində irimiqyaslı layihələr həyata keçirilmiş, elektrik stansiyaları istismara verilmiş, yeni yollar çəkilmiş, müasir sənaye və kənd təsərrüfatı müəssisələri yaradılmış, idman kompleksləri, təhsil, səhiyyə, mədəniyyət və turizm ocaqları inşa olunmuş, nəticədə, minlərlə iş yeri açılmışdır.

Şəhər və rayon mərkəzlərində, ayrı-ayrı yaşayış məntəqələrində əsaslı abadlıq-quruculuq işləri görülmüş, istirahət bağları və parklar salınmış, müasir üslublu tikililər, milli arxitekturalı binalar ucaldılmış, tarixi memarlıq abidələri bərpa edilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikasında abadlıq-quruculuq işlərinin davam etdirilməsini, habelə "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda müəyyən olunmuş tədbirlərin həyata keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsi məqsədi ilə Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə 5,0 (beş) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 12 yanvar 2017-ci il*

## Bu gün Naxçıvan Muxtar Respublikasının çiçəklənmə dövrüdür

### *Çünki bütün istiqamətlər üzrə işlər uğurla gedir və gözəl nəticələr var*

*Naxçıvan Muxtar Respublikası yeni ilə uğurla başladı. Muxtar respublika sakinləri ötən ilin nailiyyətlərinin sevincini yaşadığı bir dövrdə Azərbaycan Prezidenti cənab İlham Əliyev Naxçıvana səfər etdi. Dövlət başçısı kimi cənab İlham Əliyevin Naxçıvana sayca 13-cü səfəri də muxtar respublikamız üçün çox mühüm əhəmiyyət daşıyan obyektlərin istifadəyə verilməsi ilə yadda qaldı. Ölkə rəhbəri budəfəki səfərində də muxtar respublikada aparılan quruculuq işlərini yüksək qiymətləndirdi: **"Çox şadam ki, Naxçıvan uğurla, sürətlə inkişaf edir, böyük quruculuq, abadlıq işləri aparılır. Son illər ərzində Naxçıvan böyük inkişaf yolu keçmişdir. Naxçıvan şəhərinin abadlaşdırılması, gözəlləşdirilməsi, infrastruktur layihələrinin icrası, bütün şəhər və kəndlərin abadlaşması prosesi onu göstərir ki, respublika möhkəm ayaqda dayanıb. Hesab edirəm ki, bu gün Naxçıvan Muxtar Respublikasının çiçəklənmə dövrüdür. Çünki bütün istiqamətlər üzrə işlər uğurla gedir və gözəl nəticələr var".***



Bu, Azərbaycan Prezidentinin muxtar respublika rəhbərinin, eləcə də bütün naxçıvanlıların fəaliyyətinə verdiyi yüksək dəyərdir. Blokadanın çətinliklərinə baxmayaraq, muxtar respublikada böyük quruculuq proqramı gerçəkləşdirilib, Naxçıvan yeni inkişaf mərhələsinə qədəm qoyub. Bu yüksəliş hər gün gözümüz qarşısında baş verdiyindən bizə adi görünür. Ancaq dövlət başçısına adi görünmür. Prezident blokada şəraitində inkişaf və tərəqqiyə nail olmağın çətinliklərini çox yaxşı bilir. Ölkə rəhbəri onu da bilir ki, blokada şəraitində daşı daş üstə qoymaq hər oğulun işi deyil.

Bu gün Naxçıvanda hansı sahəyə baxsaq, orada geniş islahatların aparıldığının şahidi olarıq. Bütün sahələrdə analoqu olmayan uğurlar ona görə qazanılır ki, burada həm ulu öndərimiz Heydər Əliyevin yolu sədaqətlə davam etdirilir, həm də hər kəs öz işinə məhəbbətlə yanaşır. Odur ki, dövlət başçısı Naxçıvana səfəri zamanı bu məsələni xüsusi vurğulayaraq deyib: ***"Abadlıq-quruculuq işləri bir tərəfdən ölkəmizin gücünü, digər tərəfdən Naxçıvan rəhbərliyinin səmərəli işini, sakinlərin bu işlərə olan münasibətini göstərir. Bütün bu işlər böyük məhəbbətlə, zövqlə və səliqə ilə görülür".***

Naxçıvan Muxtar Respublikası bir müddət elektrik enerjisi sarıdan çətinliklər çəkib. Ötən əsrin 90-cı illərinin əvvəllərində muxtar respublikaya sutka ərzində 6-8 saat elektrik enerjisi verilir, qonşu ölkələrdən elektrik enerjisi alırdıq. Kəskin kontinental iqlim şəraiti olan Naxçıvanın mənfi 40 dərəcəyə düşən soyuğundan qorunmaq üçün insanlar qeyri-standart elektrik qızdırıcılarından istifadə etmək məcburiyyətində qalırdılar. Bu da elektrik xətlərinin, transformatorların sıradan çıxmasına səbəb olur, qrafik üzrə verilən elektrik enerjisindən istifadəyə maneçilik törədirdi. Həmin dövrdə Naxçıvanda yaşayıb fəaliyyət göstərən ümummilli liderimiz Heydər Əliyevin şəxsi nüfuzu sayəsində qonşu dövlətlərdən elektrik enerjisi alınmasını təmin etmək üçün təcili tədbirlər görülüb. 1993-cü ilin ortalarında Naxçıvana İran İslam Respublikasından 42 meqavat, Türkiyə Respublikasından 63 meqavat gücündə elektrik enerjisi daxil olub, tələbatçılara sutka ərzində 12 saat elektrik enerjisi verilib.

Naxçıvanın enerji təhlükəsizliyinin təmin olunması ulu öndərimiz Heydər Əliyevin hər zaman diqqət mərkəzində olub. Ümummilli liderimizin 1993-cü ildə Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra bu sahədə mühüm tədbirlər həyata keçirilib. Ulu öndərin yolunu uğurla davam etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən tədbirlər nəticəsində Naxçıvanın enerji təhlükəsizliyi təmin olunub. 2006-cı ildə Naxçıvan Qaz-Turbin Elektrik Stansiyası təbii qazla işləmə rejiminə keçirilib, 220 kilovoltluq "Babək" yarımstansiyasında əsaslı təmir və yenidənqurma işləri aparılıb.

Həmin il ümumi gücü 87 meqavat olan Naxçıvan Modul Elektrik Stansiyası tikilib istismara verilib. Son illər isə muxtar respublikanın mövcud hidroenerji potensialından istifadə edilməklə ekoloji və iqtisadi cəhətdən daha səmərəli olan su elektrik stansiyaları yaradılıb. 2006-cı ilin dekabrında Heydər Əliyev Su Anbarı üzərində 4,5 meqavat gücündə su elektrik stansiyası, 2010-cu ilin oktyabrında Gilançay üzərində 22 meqavat gücündə Biləv Su Elektrik Stansiyası tikilib. 2014-cü ildə Şərur rayonu ərazisində 20,5 meqavat gücündə "Arpaçay-1", 1,4 meqavat gücündə "Arpaçay-2" Su Elektrik stansiyaları fəaliyyətə başlayıb. Bu sahədə görülən işlərin davamı kimi 2015-ci ildə Babək rayonu ərazisində Naxçıvan Günəş Elektrik Stansiyası istifadəyə verilib.

Göründüyü kimi, muxtar respublikanın elektrik enerjisi ilə təminatına möhkəm zəmin yaradılıb. İstehsal olunan elektrik enerjisi nəinki daxili tələbatı ödəyir, hətta elektrik enerjisi ixrac etməyə imkan verir. Təkcə bir faktı deyək ki, muxtar respublikamızda alternativ və bərpa olunan elektrik stansiyalarında illik elektrik enerjisi istehsalı ümumi istehsalın 53,4 faizini təşkil edir. Bu göstərici çox nadir ölkələrdə müşahidə olunur. Dünya ölkələri içərisində alternativ və bərpa olunan elektrik stansiyalarında istehsal olunan enerjinin miqdarı ümumi istehsalın 50 faizindən çoxunu təşkil edən cəmi bir neçə ölkə mövcuddur.

Bu stansiyaların açılışında ölkə rəhbəri iştirak edib. Azərbaycan Prezidenti cənab İlham Əliyevin Naxçıvan səfərlərinə nəzər yetirsək görərik ki, ölkə rəhbərinin hər səfərində enerji təhlükəsizliyinin təmin olunması ilə bağlı mühüm qərarlar qəbul edilib, yeni stansiyalar istifadəyə verilib. Ölkə başçısının budəfəki səfərində təməli qoyulan Ordubad Su Elektrik Stansiyası Naxçıvanın enerji təhlükəsizliyini daha da möhkəmləndirəcək, ixrac imkanlarını artıracaqdır. Azərbaycan Prezidenti ötən səfərlərində olduğu kimi, bu dəfə də Naxçıvanda bu istiqamətdə həyata keçirilən tədbirləri yüksək qiymətləndirib, enerji təhlükəsizliyinin təmin olunmasının əhəmiyyətindən danışıb: ***"Enerji potensialı və enerji təhlükəsizliyi Naxçıvan üçün xüsusi əhəmiyyət daşıyır. Çünki ölkəmizin əsas hissəsi ilə Naxçıvanın coğrafi əlaqəsi yoxdur. Belə olan halda biz mütləq enerji potensialının inkişafına fikir verməliyik. Bu gün Naxçıvan elektrik enerjisi ilə tam təmin olunub və eyni zamanda, enerji ixrac edir. Naxçıvan təbii qazla da tam təmin olunub. Gələcəkdə bərpa olunan enerji növlərinin yaradılmasından, xüsusilə Ordubad Su Elektrik Stansiyasının işə düşməsindən sonra Naxçıvanda enerji məsələləri ilə bağlı bundan onilliklər sonra heç bir problem olmamalıdır".***

Enerji təhlükəsizliyinin təmin olunması Naxçıvan Muxtar Respublikasının ümumi inkişafına öz töhfəsini verib. Yeni elektrik stansiyalarının yaradılmasından sonra sənaye müəssisələri işə salınıb, yerli istehsal artıb, nəticədə, Naxçıvanın ərzaq təhlükəsizliyi məsələsi də öz həllini tapıb. Təbii qazın verilməsinin, elektrik enerjisi ilə təchizatın yaxşılaşdırılmasının nəticəsidir ki, biz indi Naxçıvanın bu sərt qışında isti evimizdə oturub son illər yaradılan soyuducu anbarların, istixana komplekslərinin bəhrəsi olan yerli

*Ardı 2-ci səhifədə*

ərzaq məhsullarından istifadə edirik, heç kimə də möhtac deyilik. Odur ki, öz isti evində televizorun qarşısında oturub ölkə başçısının muxtar respublikaya səfərini izləyən, Prezidentimizin Naxçıvanın enerji təhlükəsizliyi ilə bağlı görülən işlər barədə çıxışını dinləyən hər bir sadə naxçıvanlının qəlbindən bu böyük dövlət xadiminə sonsuz minnətdarlıq hissləri keçir.

Naxçıvan Muxtar Respublikası tarixən istər içməli, istərsə də suvarma suyuna olan tələbatın tam ödənilmədiyi ərazilərdən olub. Ötən əsrin 90-cı illərinin əvvəllərində muxtar respublika sakinləri elektrik enerjisi, təbii qaz kimi içməli su sarıdan da korluq çəkiblər. "Şərq qapısı" qəzetinin 1994-cü il 29 yanvar tarixli nömrəsində dərc olunan "İçməli su dərdi" adlı yazıda oxuyuruq: "Bir ildən artıqdır ki, krantların suyu gəlmir. Sakinlər çıxılmaz vəziyyətdə qalıblar. Müraciət etmədikləri idarə, qapılarını döymədikləri vəzifəli şəxs qalmayıb. Ancaq nə fayda, nə vacib işə hələlik bir əncam çəkən tapılmır. Bu qış günlərində içməli su əldə etmək böyük problemə çevrilmişdir. Camaat naəlac qalıb quyu suyundan istifadə edir. Şor və həm də içmək üçün heç cür yararlı olmayan bu su adamların səhhətinə pis təsir edir. Xüsusilə uşaqların sağlamlığını təhlükə qarşısında qoyur".

Bu məqalədə Naxçıvan şəhərinin problemləri qələmə alınsa da, əslində, bütün muxtar respublikada vəziyyət belə idi. İçməli su problemi hər kəsi düşündürürdü, ancaq bu sahədə əməli tədbirlər həyata keçirilmirdi. Dövlət başçısının diqqət və qayğısı ilə naxçıvanlıların bu problemi də həll olunub. Muxtar respublikada son illər bu sahədə mühüm tədbirlər görülüb. Azərbaycan Prezidenti əvvəlki səfərlərinin birində Naxçıvan şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin açılışını edib. Yanvarın 11-də isə Culfa və Şahbuz rayon mərkəzlərinin və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin istifadəyə verilməsi mərasimləri keçirilib. Hər iki rayonda işlərə 2012-ci ildə başlanılıb. Layihəyə əsasən, Culfa şəhərində və Gülüstan kəndində su şəbəkəsinin, Culfa şəhərində isə kanalizasiya şəbəkəsinin tikintisi aparılıb. Şahbuz şəhərinə, Kiçikoba və Daylaqlı kəndlərinə su şəbəkəsi, Şahbuz şəhərinə kanalizasiya şəbəkəsi çəkilib. Hər iki rayonda quraşdırılan sutəmizləyici qurğu 2045-ci ilə qədər əhalini və sənaye sahəsini gün ərzində 24 saat ekoloji cəhətdən təmiz su ilə təchiz edəcək. Azərbaycan Prezidenti Naxçıvan şəhər 3 nömrəli tam orta məktəbin açılış mərasimindəki çıxışında bu məsələdən də bəhs edib: ***"Bu gün biz Culfa və Şahbuz rayonlarında içməli su və kanalizasiya layihələrinin rəsmi açılışını qeyd etdik. Bu da çox önəmli layihələrdir. Hər iki şəhərə təmiz, Dünya Səhiyyə Təşkilatının standartlarına uyğun içməli su verilməsinə başlanmışdır. Ondan əvvəl Naxçıvan şəhəri su ilə təmin edilmişdir. Bu gün biz artıq digər şəhərlərə də suyun verilməsini təmin edə bildik. Bu da çox önəmlidir. İnsan sağlamlığı üçün əsas amillərdən biri də təmiz sudur. Biz onu da həll etmişik. Bu il Dövlət İnvestisiya Proqramında Naxçıvan Muxtar Respublikasının digər şəhərlərinin su-kanalizasiya problemlərinin həlli məsələləri də öz əksini tapacaq".***

Deməli, yaxın gələcəkdə muxtar respublikanın digər bölgələrinin sakinləri də ekoloji cəhətdən təmiz içməli su ilə təmin ediləcəklər. Qeyd olunduğu kimi, təmiz su insan sağlamlığı üçün çox vacibdir. Bu layihənin həyata keçirilməsi Naxçıvanda insanların sağlamlığına göstərilən yüksək qayğıdan xəbər verir.

Müasir Naxçıvanın əldə etdiyi ən mühüm tarixi nailiyyətlərdən biri də burada güclü ordunun yaradılmasıdır. Azərbaycan Prezidentinin Naxçıvan Muxtar Respublikasına səfərləri çərçivəsində diqqət mərkəzində olan məsələlərdən biri də ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlərlə tanışlıqdır. Ölkə başçısı Naxçıvan Muxtar Respublikasına səfərlərinin birində hərbi quruculuq sahəsində burada görülən işləri yüksək qiymətləndirərək deyib: ***"Ordu quruculuğu sahəsində Naxçıvanda çox böyük işlər görülür. Bu hərbi hissə Azərbaycandakı hər bir hərbi hissə üçün nümunə, örnək ola bilər. Burada olan şərait ən yüksək standartlara cavab verir. Azərbaycan ordusu məhz bu cür olmalıdır".***

Ölkə rəhbərinin Naxçıvana son səfəri zamanı Fövqəladə Hallar Nazirliyinin zabit və gizirləri üçün inşa olunmuş 48 mənzilli binanın, Əlahiddə Ümumqoşun Ordusunun "N" saylı hərbi hissəsindəki əsgər yataqxanasının və Əsgəri-Məişət Kompleksinin açılışlarında iştirak etməsi, silahlanmaya yeni qəbul edilən hərbi texnika ilə tanış olması Onun bu sahəyə xüsusi diqqət yetirdiyinin göstəricisidir.

Dövlət başçısı Naxçıvana budəfəki səfərində də həyata keçirilən ordu quruculuğu tədbirlərindən razılığını və Əlahiddə Ümumqoşun Ordusunun muxtar respublikanı etibarlı qoruduğundan əminliyini ifadə edib: ***"Bu gün Naxçıvan ordusu istənilən vəzifəni icra etməyə hazırdır, öz sərhədlərini qoruyur və siz burada düşmənlə üz-üzə yaşayırsınız, cəsarətlə yaşayırsınız, rəşadət göstərirsiniz və göstərmisiniz. 1990-cı illərin əvvəllərində Heydər Əliyevin rəhbərliyi ilə naxçıvanlılar öz diyarını qoruya bildilər, düşməni yerinə oturtdular. Bu gün Naxçıvanın hərbi potensialı ən yüksək səviyyədədir. Ən müasir texnika, silah, sursat buraya göndərilir və döyüş qabiliyyəti artır, xidmət şəraiti yaxşılaşır".***

Azərbaycan Prezidentinin bu mövzu ilə bağlı çıxışında bir əminlik vardı. Hiss olunurdu ki, ölkə rəhbəri Naxçıvanın taleyindən narahat deyil. Çünki O, bilir ki, özünün yüksək diqqət və qayğısı ilə yaradılan Əlahiddə Ümumqoşun Ordusu muxtar respublikanın sərhədlərini etibarlı müdafiə edir və Naxçıvan əmin əllərdədir.

***"Naxçıvanın hərbi potensialı və müdafiə qabiliyyəti daim diqqət mərkəzindədir. Mən çox şadam ki, bu məsələlər də uğurla öz həllini tapır və əlbəttə ki, respublikanın sosial-iqtisadi inkişafı ilə bağlı çox önəmli addımlar atılır. Naxçıvanda sənaye müəssisələri yaradılır, kənd təsərrüfatı inkişaf edir, bir çox kənd təsərrüfatı məhsulları ilə siz özünüz-özünüzü təmin edirsiniz",*** – deyən ölkə rəhbəri Naxçıvanda ərzaq təhlükəsizliyi baxımından da nigarançılığın olmadığına işarə etdi, muxtar respublikadan, Azərbaycanın düşmənlə sərhədindən ölkəmizin düşmənlərinə, uğurlarımızı görmək istəməyənlərə gözdağı verdi.

Prezident İlham Əliyevin muxtar respublikamıza son səfəri Naxçıvan şəhər 3 nömrəli tam orta məktəbin açılışı ilə yekunlaşıb. Dövlət başçısının diqqət və qayğısı ilə son illər muxtar respublikada təhsil quruculuğu istiqamətində də mühüm işlər görülüb. Ölkə rəhbəri məktəbin açılış mərasimindəki çıxışında bu sahədə görülən işləri xüsusi vurğulayıb: ***"Son illər ərzində Naxçıvan Muxtar Respublikasında artıq 200-ə yaxın yeni məktəb tikilib, yaxud da ki əsaslı şəkildə təmir olunub. Təmirə ehtiyacı olan cəmi bir neçə məktəb qalıb. Əminəm ki, yaxın gələcəkdə bu məsələ də həllini tapacaq".***

Ordu və təhsil quruculuğu Naxçıvanda xüsusi diqqət yetirilən sahələrdəndir. Çünki bu iki sahədə işlər düzgün qurulmasa, dövlət müstəqilliyinin, ərazi bütövlüyünün, ölkəmizin sərhədlərinin və mənəvi sərhədlərimizin qorunmasından söhbət gedə bilməz. Əgər ordumuz ölkəmizin sərhədlərini qoruyursa, təhsilli insanlarımız da mənəvi sərhədlərimizi, müstəqilliyimizi qoruyurlar. Ölkəmizin sərhədlərini qoruyan Azərbaycan gəncidir. O, mütləq təhsilli olmalıdır, tariximizi, keçmişimizi öyrənməli və bilməlidir. O, sərhəddə nə üçün dayandığını anlamalıdır. Anlamalıdır ki, müstəqilliyimizi, son nəticədə isə Azərbaycanımızı qoruya bilsin. Bax, məhz buna görə ölkəmizdə və onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda orduya və təhsil quruculuğuna xüsusi diqqət ayrılır.

Azərbaycan Prezidentinin Naxçıvana bu tarixi səfəri də muxtar respublikamız üçün əlamətdar hadisələrlə yadda qaldı. Ölkə rəhbəri bir sıra sosial obyektlərin açılışını etməklə yanaşı, Naxçıvanın gələcəyi üçün görüləcək çox mühüm işlərin də anonsunu verdi. Bu gün bütün ordubadlılar, bu rayona tez-tez səfər edənlər sevinc içərisindədirlər. Ona görə ki, dövlət başçısı yaxın gələcəkdə Culfa-Ordubad yolunun da yenidən qurulacağını bildirdi. Bu gün bütün naxçıvanlılar sevinc içərisindədirlər. Biz həm ölkə başçısının Naxçıvana son səfərinin xoş təəssüratlarının, həm də Azərbaycan Prezidentinin bu fikirlərinin sevincini yaşayırıq: ***"Nəhayət, biz Naxçıvanın nəqliyyat problemlərinin həlli üçün də çalışırıq. Qeyd etdiyim kimi, Naxçıvan-Təbriz-Məşhəd dəmir yolu fəaliyyətə başlayıb. Bildiyiniz kimi, biz indi İran İslam Respublikası və Rusiya ilə Şimal-Cənub nəqliyyat dəhlizi üzərində işləyirik. İşlərin bizə aid olan hissəsi artıq başa çatıb. Bu dəhliz tam işə düşəndən sonra Naxçıvan dəmir yolu ilə İran vasitəsilə Azərbaycanın əsas hissəsi ilə də birləşəcək. Biz bu layihəni sürətləndirmək istəyirik ki, tezliklə bu, baş versin. Ondan sonra Naxçıvanda istehsal olunan mallar artıq dünya bazarlarına rahatlıqla çıxa biləcək və insanlar üçün bu, əlbəttə ki, əlavə imkanlar yaradacaq".***

Həmin layihənin icrası blokada çətinliklərini aradan qaldıracaq, Naxçıvanın inkişafını daha da sürətləndirəcəkdir. Ölkə başçısının səsləndirdiyi bu fikirlər bir daha göstərdi ki, Naxçıvan Muxtar Respublikası Azərbaycan Prezidentinin daim diqqət mərkəzindədir. Necə ki ulu öndərimiz Heydər Əliyev Naxçıvana böyük diqqətlə yanaşırdı, cənab İlham Əliyev də bu siyasəti davam etdirir.

Dövlət başçısının diqqət və qayğısı, naxçıvanlıların vətənpərvərliyi sayəsində muxtar respublikamız artıq uğurlu inkişaf yolundadır. Onu bu yolundan heç bir qüvvə geri döndərə bilməz. Muxtar respublika əhalisi Prezidentinin qayğısını hər zaman öz üzərində hiss edir. Cənab İlham Əliyev Naxçıvana budəfəki səfərində də muxtar respublikaya bundan sonra da yüksək diqqət və qayğı göstəriləcəyini bəyan etdi.

Müasir Naxçıvan ümummilli liderimizin görmək istədiyi kimi qurulur. Ulu öndərimiz daim Azərbaycanı, o cümlədən Naxçıvanın gələcəyini düşünür və deyirdi ki, ***"Mən istəyirəm mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin".*** Bu gün biz hamımız ümummilli liderimizin bu arzu və istəklərinin yerinə yetirilməsinin şahidləriyik.

*Xalqımızın böyük oğlu Heydər Əliyev əsl vətəndaş olmaq üçün ləyaqət göstərməyi, xalq, Vətən naminə çalışmağı, Vətən sevgisini, doğma torpağa, doğma yurda bağlılığı əməli işlə nümayiş etdirməyi tövsiyə edirdi:* ***"Həyatın mənası çox və yaxud az yaşamaqdan ibarət deyil. Onun əsas mənası bu həyatda öz yerini tutmaq, mövqeyini müəyyən etmək, ləyaqət göstərmək və başqaları üçün nümunə olmaqdır".*** *Bu gün Naxçıvan Muxtar Respublikası bütün sahələrdə əsl nümunə gücünə malikdir.*

**Tural SƏFƏROV**

## Görkəmli dövlət xadimi Əziz Əliyevin 120 illik yubileyi münasibətilə tədbir keçirilib

***Azərbaycan Respublikasının Prezidentinin 2016-cı il 18 noyabr tarixli Sərəncamına və sərəncamın icrası ilə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təsdiq etdiyi Tədbirlər Planına əsasən, Naxçıvan Tibb Kollecində görkəmli dövlət və elm xadimi, pedaqoq-alim, professor Əziz Əliyevin yubileyinə həsr edilmiş tədbir keçirilib.***



Tədbiri giriş sözü ilə Naxçıvan Tibb Kollecinin direktoru Sona Məmmədova açıb.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Kadr, elm və təhsil sektorunun müdiri Səmayə İbrahimovanın "Əziz Əliyevin səhiyyədəki xidmətləri" və kollecin şöbə müdiri Sahibə Quliyevanın "Əziz Əliyevin həyatı və siyasi fəaliyyəti" mövzularında çıxışları dinlənilib.

Çıxışlarda vurğulanıb ki, XX əsrdə Azərbaycan xalqının yetişdirdiyi görkəmli şəxsiyyətlərdən biri olan Əməkdar həkim, tibb elmləri doktoru, professor Əziz Əliyev dərin ağıl və düşüncəyə, rəhbərlik etmək qabiliyyətinə və zəngin həyat təcrübəsinə malik idi. Əziz Əliyev 1897-ci ilin yanvar ayında qədim Azərbaycan torpağı olan İrəvan quberniyasının Hamamlı kəndində anadan olub. İlk təhsilini doğulduğu kənddə alıb, 1908-ci ildən sonra isə Rusiyanın Çita şəhərindəki gimnaziyada oxuyub. 1914-1917-ci illərdə İrəvan kişi gimnaziyasında təhsil alan Əziz Əliyev buranı əla qiymətlərlə bitirdikdən sonra Rusiyanın Sankt-Peterburq şəhərindəki Hərbi Tibb Akademiyasına qəbul edilib. 1918-ci ildə İrəvana gələn Əziz Əliyev ailəsini çətinliklə Naxçıvanın Şərur rayonuna gətirib, bir müddət sonra Şahtaxtı kəndinə köçüb.

Qeyd olunub ki, ailənin ağır vəziyyəti və ermənilərin törətdikləri qırğınların fəlakətli nəticələri Əziz Əliyevin Sankt-Peterburqa qayıdaraq təhsilini davam etdirməsinə imkan verməyib. O, 1923-cü ilin may ayına qədər kənddə orta tibb işçisi, həkim köməkçisi kimi çalışıb.

1923-cü ilin mayında Əziz Əliyev Bakıya köçüb. Bundan sonra onun həyatının yeni mərhələsi başlayıb. Bakıda ilk vaxtlar Azərbaycan SSR Xalq Komissarları Şurasında iş icraçısı, həmin idarənin Ümumi şöbə müdirinin müavini, katibin müavini və nəhayət, respublika Xalq Komissarları Şurasının katibi vəzifələrini icra edib. O, bu çətin və məsuliyyətli vəzifələrdə çalışmaqla yanaşı, 1923-cü ildən etibarən yarımçıq qalmış ali tibb təhsilini indiki Bakı Dövlət Universitetinin Tibb fakültəsində davam etdirib, 1927-ci ildə universiteti bitirərək Daxili xəstəliklər kafedrasında işləməyə başlayıb. Əziz Əliyev həmin kafedrada əvvəl ordinator, sonra isə aspirant, assistent və dosent kimi fəaliyyət göstərib, 1929-1932-ci illərdə isə Azərbaycan Klinik İnstitutunun rektoru vəzifəsində çalışıb.

Görkəmli alim Əziz Əliyev Azərbaycanda səhiyyə işinin təşkilinə xüsusi diqqət yetirib, onun bu sahədəki əvəzsiz xidmətləri tarixə qızıl hərflərlə həkk olunub. O, Xalq Səhiyyə Komissarlığı Müalicə şöbəsinin müdiri, Bakı Şəhər Səhiyyə Şöbəsinin müdiri, Xalq Səhiyyə Komissarlığında müavin, xalq səhiyyə komissarı və digər vəzifələrdə çalışıb.

Diqqətə çatdırılıb ki, 1930-cu ildə indiki Bakı Dövlət Universitetinin Tibb fakültəsinin bazası əsasında Azərbaycan Dövlət Tibb İnstitutunun (ADTİ) yaradılması və bundan sonrakı çətin mərhələlərdə instituta rəhbərlik etmək böyük cəsarət tələb edirdi. Görkəmli alim bu illərdə ADTİ-nin yaradılmasının təşkilati işlərinin yerinə yetirilməsində mühüm xidmətlər göstərib, 1932-ci il iyunun 1-dən etibarən həmin institutun rektoru vəzifəsində çalışmağa razılıq verib.

Həmin illərdə bir tərəfdən respublikada yüksəkixtisaslı həkimlərin hazırlanmasına ciddi ehtiyac duyulması, digər tərəfdən də onların hazırlığını təmin edə bilən kadr çatışmazlığı, Azərbaycan dilində tibbi ədəbiyyatın və dərs vəsaitlərinin azlığı, tədris bazalarının zəifliyi, kitab fondunun lazımi səviyyəyə çatdırılmaması və digər məsələlər həllini gözləyən problemlər idi. Bu problemlərin aradan qaldırılması üçün Əziz Əliyev yorulmadan çalışıb, azərbaycanlı kadrları işə cəlb edərək onların fəaliyyət dairəsini genişləndirib və beləliklə, ana dilində dərsliklər, dərs vəsaitləri, monoqrafiya və tövsiyələrin yazılmasına nail olub. Məhz bu səylərin nəticəsi olaraq, 1932-1935-ci illər ərzində görkəmli alimin rəhbərliyi altında Azərbaycan dilində 55 adda dərslik və dərs vəsaiti tərtib edilərək tibb təhsili alan tələbələrin istifadəsinə verilib. Bu, o dövrün texniki imkanları müqabilində çox böyük göstərici idi.

Əziz Əliyev hansı ictimai, inzibati, təşkilati işdə çalışmağından asılı olmayaraq, elmi axtarışlarını bir an belə, dayandırmayıb. İnstitutu bitirəndən iki il sonra – 1929-cu ildə namizədlik, 5 il sonra isə doktorluq dissertasiyalarını uğurla müdafiə edib. O, 1941-ci il mayın 13-də SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının Rəyasət Heyəti nəzdində təşkil edilmiş Elmi Şuranın üzvü, 1956-cı ildə isə professor vəzifələrinə seçilib.

Görkəmli alim 87 elmi əsərin müəllifidir. Bu əsərlərin böyük bir hissəsi təbabətin ayrı-ayrı sahələrinə, bir qismi isə tarixi və siyasi problemlərə həsr olunub.

Tədbirin sonunda görkəmli dövlət xadimi Əziz Əliyevin ömür yoluna həsr edilmiş sənədli film nümayiş etdirilib.

**Hafizə ƏLİYEVA**

# Ötən ilin yekunları müzakirə edilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib



***Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyətinin iclası keçirilib. İclasda 2016-cı ildə muxtar respublika məhkəmələrinin fəaliyyətinin yekunları müzakirə olunub.***

İclası giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Ramiz Süleymanov məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə görülən işlər, 2016-cı ildə muxtar respublikada ədalət mühakiməsinin həyata keçirilməsi vəziyyəti ilə bağlı məruzə edib.

Muxtar respublika məhkəmələri tərəfindən vətəndaşların hüquq və azadlıqlarının təmin olunması sahəsində, habelə əhalinin hüquqi maarifləndirilməsi istiqamətində görülən işlər barədə danışan Ali Məhkəmənin sədri bildirib ki, əvvəlki illərdə olduğu kimi, ötən ildə də Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişaf etdirilməsi, məhkəmə orqanlarının fəaliyyətinin müasirləşdirilməsi istiqamətində mühüm addımlar atılıb, məhkəmələrin fəaliyyətində yeni informasiya texnologiyalarının tətbiq olunması ilə bağlı bir sıra işlər görülüb. Hakimlərin peşə bacarıqlarının artırılması, onlar tərəfindən ədalət mühakiməsinin həyata keçirilməsi ilə bağlı olaraq Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsi, onların hüquqi biliklərinin daha da möhkəmləndirilməsi istiqamətində, eləcə də milli qanunvericiliyə edilən əlavələr və dəyişikliklər barədə müntəzəm olaraq muxtar respublikada yaşayan əhali arasında hüquqi təbliğat və izahat işlərinin aparılması sahəsində bir sıra tədbirlər həyata keçirilib.

Ali Məhkəmənin sədri qeyd edib ki, qanunvericilik bazasının mütəmadi olaraq təkmilləşdirilməsi, məhkəmə orqanlarının yeni informasiya-kommunikasiya texnologiyaları ilə təmin olunması məhkəmə sisteminin daha da müasirləşdirilməsinə səbəb olmaqla yanaşı, ədalət mühakiməsinin tam, obyektiv və qərəzsiz aparılmasına, məhkəmə nöqsanlarının və işlərə baxılmasında gecikdirilmə hallarının aradan qaldırılmasına, məhkəmə qərarlarının vaxtında icra olunmasına, məhkəmə müdafiəsi hüququnun təmin olunmasına şərait yaradıb.

Ali Məhkəmənin sədri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən imzalanan 15 iyul 2011-ci il tarixli “Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında” Fərmandan irəli gələn vəzifələrin icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsində görülən işlərlə bağlı məlumat verərək məhkəmə qərarlarının axtarış sistemli vahid elektron bazasının təkmilləşdirilməsindən, məhkəmənin elektron kitabxana bazasının qanunvericilik aktları və yeni hüquq ədəbiyyatları ilə zənginləşdirilməsindən bəhs edib, həyata keçirilən tədbirlərin insan hüquq və azadlıqlarının təmin olunmasına yönəldiyini bildirib.

Sonra muxtar respublikanın ixtisaslaşdırılmış məhkəmələrinin, şəhər və rayon məhkəmələrinin sədr və hakimlərinin 2016-cı ildə gördükləri işlərə dair məlumatları dinlənilib.

İclasa Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Ramiz Süleymanov yekun vuraraq bildirib ki, Ali Məhkəmə öz fəaliyyətini bundan sonra da qanunvericiliyin tələbləri səviyyəsində təşkil edərək ədalət mühakiməsini obyektiv, tam və qərəzsiz şəkildə həyata keçirəcək, vətəndaşların hüquqi maarifləndirilməsi işinin daha da gücləndirilməsi və əhalinin hüquq xidmətlərinə olan tələbatının ödənilməsi üçün səylərini davam etdirəcək.

***Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mətbuat xidməti***

* * *

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində 2016-cı ilin yekunları ilə bağlı keçirilən kollegiya iclasında komitənin sədri Ramilə Seyidova hesabat məruzəsi ilə çıxış edib.***



Bildirilib ki, ailə institutunun gənclər arasında möhkəmləndirilməsi, reproduktiv sağlamlığın qorunması, sağlam həyat tərzi, qadınların hüquqi biliklərinin artırılması, yeni nəslin sağlam doğulması və böyüməsi, erkən və qanqohumluğu nikahlarının fəsadları, ailə dəyərlərinin təbliği, sosial şəbəkələrdən qeyri-düzgün istifadənin ailə münasibətlərinə mənfi təsirinin əhalinin lazımi yaş qruplarına çatdırılması məqsədilə rayon və kənd mərkəzlərində, ümumtəhsil məktəblərində maarifləndirici tədbirlər keçirilib.

Bəhs olunan dövrdə xüsusi qayğıya ehtiyacı olan 16 tənha ahıl qadına, aztəminatlı ailələrə baş çəkilib, onların problemlərinin aradan qaldırılması ilə bağlı işlər görülüb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın icrası ilə əlaqədar 1100 nəfər sağlamlıq imkanları məhdud və aztəminatlı ailənin üzvü olan qadınla əlaqə saxlanılıb, 38 qadın müvafiq peşə kurslarına cəlb olunub.

Ramilə Seyidova bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq olunmuş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı”na uyğun olaraq 2005 sağlamlıq imkanları məhdud uşaqdan 1285-nin valideynləri ilə əlaqə saxlanılıb, uşaqların potensialına uyğun olaraq 109 uşaq müvafiq təhsil müəssisələrinə göndərilib.

Məktəbəqədər təhsil müəssisələrində sağlamlıq imkanları məhdud uşaqların təlim-tərbiyə işinə məsul işçilərin peşəkarlıq səviyyəsinin artırılması məqsədilə 3 dəfə kurs, ümumtəhsil müəssisələrində tədrisə cəlb edilmiş sağlamlıq imkanları məhdud uşaqların təhsili ilə bağlı ibtidai sinif müəllimləri, məktəb psixoloqları və distant təhsil üzrə pedaqoji kadrlar üçün 8 dəfə seminar keçirilib, 211 dəfə məktəbəqədər, məktəb, məktəbdənkənar müəssisələrdə monitorinqlər aparılıb.

Qeyd olunub ki, muxtar respublikada yaşayan hemofiliyalı və talassemiyalı uşaqlar üçün qanvermə aksiyası keçirilib. Komitə tərəfindən xüsusi qayğıya ehtiyacı olan 80 uşağa məktəbli paltarı, dərs ləvazimatları və qış geyimləri verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 24 may tarixli Fərmanı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası”na uyğun olaraq komitə tərəfindən 15 uşaq müəssisəsində monitorinqlər keçirilib.

Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankı təşkil olunub, məlumat bankına 4645 uşaq haqqında fərdi məlumatlar daxil edilib.

İclasda komitənin sədr müavini Aytən Məmmədova, şöbə müdirləri Sahir Rüstəmov və Rəşad Kərimov çıxış ediblər.

* * *



***“Naxçıvanqaz” İstehsalat Birliyində də ötən ilin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclas keçirilib. İclasda “Naxçıvanqaz” İstehsalat Birliyinin direktoru Ramin İsmayılov məruzə edib.***

Qeyd olunub ki, muxtar respublika üzrə 1 yanvar 2017-ci il tarixə təbii qaz istehlakçılarının ümumi sayı 87 min 202, o cümlədən 85 min 61 əhali abonenti və 2141 qeyri-əhali abonenti olub. Ötən il 1647 abonent, o cümlədən 1511 əhali abonenti və 136 qeyri-əhali abonenti tərəfindən daxil olan müraciətlərə əsasən, ev, mənzil və müxtəlif təyinatlı obyektlər qazlaşdırılıb.

Əhali qrupu üzrə təbii qaz istehlakçılarının mavi yanacaqdan müasir standartlara cavab verən texnologiyalardan istifadə etmək məqsədilə Naxçıvan şəhərində ön ödənişli smartkarttipli qaz sayğaclarının quraşdırılması davam etdirilib, ötən il, ümumilikdə, 5731 qaz sayğacı və sayğacların kənar müdaxilələrdən mühafizəsi üçün qutular quraşdırılıb. Sayğacların hər biri Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində dövlət qeydiyyatından keçirilir.

Vurğulanıb ki, qəza hallarının aradan qaldırılmasında operativliyin təmin edilməsi, yeni qaz xətləri çəkilərkən mövcud standartların tələblərinin gözlənilməsinə diqqətin artırılması, yaradılmış mal və material ehtiyatlarından səmərəli istifadə edilməsi, işlənən materialların yerinə yenilərinin alınıb gətirilməsi, sabit ehtiyatın yaradılması və işçilərin qış mövsümünə uyğun xüsusi geyim və avadanlıqlarla təmin olunması diqqət mərkəzində saxlanılıb.

Avtomat qazpaylayıcı stansiyalarda avadanlıqlara texniki xidmət işləri qrafik üzrə müəyyən olunan vaxtlarda aparılıb. Təbii qazın mexaniki qarışıqlardan təmizlənməsi üçün tətbiq olunan qaztəmizləyici separator və süzgəclərə, texnologiyaya uyğun qurulmuş bağlayıcı avadanlıqlara, təzyiq tənzimləyicilərinə, qaz sərfinin hesablanması üçün qaz sərfini ölçən cihazlara, elektrokimyəvi mühafizə qurğularına və bütün texnoloji avadanlıqlara zəruri texniki xidmət göstərilib, sıradan çıxmış detal və hissələr yenisi ilə əvəz olunub.

Qaz təsərrüfatında, xüsusilə qəza xidmətində çalışanların peşəkarlıq səviyyəsini artırmaq məqsədilə onların ixtisas hazırlığına cəlb olunması davam etdirilib, Naxçıvan Regional Peşə Tədris Mərkəzində yeni açılan Qaz avadanlıqlarının istismarı və təmiri üzrə çilingər peşəsinin ixtisasartırma kursuna rayon, şəhər Qaz İstismarı idarələrinin bir qrup işçisi cəlb olunub və kursu bitirən müdavimlərə sertifikatlar verilib.

“Naxçıvanqaz” İstehsalat Birliyi əhali qrupunun, idarə, təşkilat və müəssisələrin davamlı və dayanıqlı təbii qazla təminatı üçün qaz təchizatı sistemində texniki baxış tədbirlərini davam etdirir, təbii qaz nəqlinin soyuq hava şəraitinə uyğun gələn texnoloji rejimdə həyata keçirilməsi üçün tədbirlər görür.

Sonda məruzə ətrafında çıxışlar olub.

***Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyində keçirilən kollegiya iclasında vergilər naziri, üçüncü dərəcəli dövlət vergi xidməti müşaviri Əli Mahmudovun 2016-cı ildə görülmüş işlər və beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin dördüncü sessiyasında qarşıya qoyulan vəzifələr haqqında məruzəsi dinlənilib.***



Qeyd olunub ki, 2016-cı ildə muxtar respublikada əldə olunmuş uğurlu nəticələr özünü vergi sahəsindən daxilolmalarda da göstərib. Belə ki, bəhs olunan dövrdə nazirlik üzrə müəyyən olunmuş proqnoz 106,1 faiz icra edilib. Bu da 2015-ci illə müqayisədə 484 min manat və ya 0,8 faiz çoxdur.

Muxtar respublikamızda kiçik və orta sahibkarlığın fəaliyyətinin güclənməsi bu sahədə vergi daxilolmalarının əhəmiyyətli dərəcədə artımına səbəb olub. Buna görədir ki, özəl sektordan vergi daxilolmaları 2015-ci illə müqayisədə 7,6 faiz artıb.

Hesabat dövrü ərzində vergi ödəyiciləri tərəfindən 24 min 735 bəyannamə təqdim edilib. Təqdim olunan bəyannamələr uyğunsuzluq yoxlamasından keçirilərək 184 vergi ödəyicisinə kameral qaydada 58 min 615 manat əlavə hesablama aparılaraq ödənilməsi təmin olunub.

Nazir bildirib ki, “2016-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında müasir elektron ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram”ın həyata keçirilməsi üçün qəbul edilmiş tədbirlər planında verilən tapşırıqların icrası istiqamətində Mərkəzi Bankla birlikdə tədbirlər davam etdirilib. Görülmüş tədbirlər nəticəsində muxtar respublika ərazisində fəaliyyət göstərən banklarda 55 min 780 bank hesabı açılıb. Həmin bank hesablarından 46 min 163-ü, hesabat dövründə açılan 15 min 346 hesabdan 15 min 343-ü aktiv olub. 2016-cı ildə POS-terminallar və digər ödəniş vasitələri ilə aparılan nağdsız hesablaşmaların həcmi 27 milyon 701 min manat olub, POS-terminalların sayı 1202-yə çatdırılıb.

“Lakin bunlara baxmayaraq, nazirliyin və yerli vergi orqanlarının operativ nəzarət strukturları ticarət və iaşə obyektlərində nəzarət-kassa aparatlarından və POS-terminallardan istifadəyə nəzarəti daha da artırmalıdırlar”, – deyən Əli Mahmudov bildirib ki, bu sahədə olan nöqsanların minimuma endirilməsi təmin olunmalıdır.

Nazir sahibkarlıq subyektləri tərəfindən vergilərin vaxtında ödənilməsi, yeni əmək müqavilələrinin bağlanmaması, əməkhaqqının reallığı əks etdirməməsi faktlarının aşkar olunması və həmin nöqsanların aradan qaldırılmasının təmin olunmasından da bəhs edib.

Məruzə ətrafında vergilər nazirinin müavini, baş vergi xidməti müşaviri Nurlan Əliyevin, Naxçıvan Şəhər Vergilər İdarəsinin, Ordubad və Şərur Rayon Vergilər şöbələrinin rəisləri Azər Nağıyevin, Məhəmməd İbadovun, Rəfail Əliyevin çıxışları olub.

* * *

***Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsində 2016-cı ildə görülən işlərə və 2017-ci ildə qarşıya qoyulan vəzifələrə həsr olunmuş yığıncaq keçirilib.***



Yığıncağı müəssisənin direktoru Behruz Əzimov açaraq məruzə ilə çıxış edib.

Qeyd olunub ki, 2016-cı ildə muxtar respublika əhalisinin, təşkilat və müəssisələrin neft və maye qaz məhsullarına olan tələbatını ödəmək məqsədilə müəssisəyə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Bakı Neft Bazası ilə bağlanmış müqaviləyə əsasən, 31 min 748,2 ton A-92 benzini, 110 min ton dizel yanacağı, 7 min 329,8 ton bitum, 10 min 999 ton mazut, 252,4 ton müxtəlif növ yağlar, 1289,4 ton maye qaz gətirilib.

Alınan yanacaq muxtar respublikaya Bakı-İran İslam Respublikası və Bakı-Gürcüstan-Türkiyə marşrutları ilə daşınıb. Belə ki, Gürcüstan-Türkiyə yolu ilə 22 min 686,8 ton dizel yanacağı və 1954,4 ton A-92 markalı avtomobil benzini, ümumilikdə, 24 min 646,2 ton, İran İslam Respublikasından keçməklə 87 min 313,2 ton dizel yanacağı, 29 min 788,8 ton A-92, 7329,8 ton bitum, 10 min 999,0 ton mazut, 1289,4 ton maye qaz, 252,4 ton müxtəlif növ yağlar, ümumilikdə, 136 min 972,6 ton neft məhsulları gətirilib.

Bildirilib ki, müəssisə 2016-cı ildə ümumi dövriyyəsi 98 milyon 741 min manat olan 163 min 923,9 ton müxtəlif neft məhsulları satıb. Bu da 32000,1 ton avtobenzin, 108 min 614,4 ton dizel yanacağı, 7329,8 ton bitum, 14 min 519,0 ton mazut, 1207,3 ton maye qaz, 252,4 ton müxtəlif yağlardan ibarətdir. Müəssisə satışdan 892,7 min manat mənfəət əldə edib.

Vurğulanıb ki, nasosların, elektrik avadanlıqlarının saz vəziyyətdə olmasına daim nəzarət edilir və bu istiqamətdə lazımi tədbirlər görülüb, yanacaq ehtiyatı yaradılıb. 1 yanvar 2017-ci il tarixə müəssisənin anbarlarında 2204,2 ton A-92 benzini, 3809,0 ton dizel yanacağı, 102,9 ton maye qaz ehtiyatı vardır.

Müəssisənin rəhbəri 2017-ci ildə qarşıda duran vəzifələrdən, bu vəzifələrin yerinə yetirilməsinin vacibliyindən də danışıb.

Məruzə ətrafında müzakirədə müəssisənin neft məhsulları üzrə anbar müdiri Kazım Rzayev çıxış edib.

**Xəbərlər şöbəsi**



# Tarix və mədəniyyət abidələrinin bərpası Naxçıvanı tanıtmaq baxımından çox əhəmiyyətlidir

## Ötən il bu sahədə mühüm işlər görülüb

***Başa vurduğumuz 2016-cı il muxtar respublikada bir çox sahələrdə əldə olunmuş uğurlu nəticələrlə xatırlanacaq. Naxçıvanın ictimai-siyasi, iqtisadi və mədəni həyatında baş verən müsbət dəyişikliklər kifayət qədərdir. Ancaq biz bugünkü yazımızda onlardan biri barədə bəhs edəcəyik. Söhbət Naxçıvanın əsrlərdən bəri milli kimliyini özündə yaşadan tarix və mədəniyyət abidələrinə göstərilən qayğıdan, bu sahədə görülmüş işlərdən gedir. Muxtar respublikada tarixi abidələrin bərpası istiqamətində həyata keçirilən tədbirlər son dövrlərdə bütün illəri əhatə edib. Lakin 2016-cı ili digərlərindən fərqləndirməyimiz onunla əlaqəlidir ki, məhz bu ildə bərpa və yenidənqurma işləri aparılan tarixi abidələr turizmin inkişafında əvəzolunmaz rola malikdirlər. Bu abidələri elə bərpa olunma tarixlərinə görə xronoloji ardıcıllıqla oxucularımızın diqqətinə bir daha çatdırmaq istədik.***

Belə ki, ötən il fevralın 15-də Şərur rayonunun Xanlıqlar kəndində muxtar respublikada mövcud olan üç "İmamzadə"dən biri – "Parçı İmamzadəsi" deyilən "İmamzadə" istifadəyə verildi. Burada bir haşiyə çıxaraq bildirək ki, İslam dünyasında Məhəmməd Peyğəmbərdən sonra dini rəhbər funksiyalarını yerinə yetirən və məhz bu müqəddəs şəxsiyyətin nəslindən olan şəxslər "İmam" adlandırılıblar. Tarixdən məlumdur ki, şiə imamları Abbasi xəlifələri tərəfindən daim təqib olunub, bu səbəbdən də onların övladları təqibdən yaxa qurtarmaq üçün müxtəlif ölkələrə, eləcə də Azərbaycana pənah gətiriblər. Azərbaycanda Səfəvi dövlətini yaradan Qızılbaş şeyxləri və onların davamçıları şiəlik məzhəbini daha da yaymaq və bu məzhəbin nüfuz dairəsini genişləndirmək üçün şiə imamları ilə bağlı olan ziyarətgahlara diqqətlə yanaşaraq bu qəbirlər üzərində türbələr inşa etdiriblər. Təsadüfi deyildir ki, Naxçıvan ərazisindəki imamzadələr də Səfəvilər dövründə tikilib.

Şərur rayonunun Xanlıqlar kəndində yerləşən "İmamzadə" yeddinci İmam Musa Kazımın oğlu Şahzadə İbrahimin məzarı üzərində tikilib, uzun illər yerli sakinlər, bura gələn ziyarətçilər üçün ziyarətgah və inanc yeri olub. "İmamzadə" giriş, salon və otaqlardan ibarətdir. Aşağı hissəsi kvadrat şəklində inşa edilən binanın tavanı tağvarı günbəzlə örtülüb. Bərpa işləri zamanı "İmamzadə"nin tarixi görkəmi və qədim memarlıq elementləri qorunub saxlanılıb. Orta əsr Azərbaycan memarlığının qiymətli nümunələrindən olan bu abidənin bərpası tarixi-mədəni irsimizə göstərilən böyük qayğının nəticəsi olmaqla yanaşı, həm də Naxçıvanın İslam dünyasının müqəddəs məkanlarından biri kimi tanıdılmasına geniş imkanlar açır. Bir ildən sonra Naxçıvanın İslam mədəniyyətinin paytaxtı kimi diqqət mərkəzində olması bu kimi abidələrimizə növbəti illərdə ziyarətçi və turist axınını stimullaşdıra bilər.

Naxçıvanın qədim tarixində mühüm rola malik abidələrdən biri də Əlincəqaladır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 11 fevral tarixli Sərəncamı ilə bərpa olunan "Əlincəqala" tarixi abidəsi ötən il iyunun 17-də burada yaradılmış muzeylə birgə istifadəyə verilib. Azərbaycan xalqının mübarizlik və vətənpərvərlik əzmini nümayiş etdirən qala birinci-altıncı əsrlərdən başlayaraq müdafiə istehkamı və yaşayış yeri kimi istifadə olunub, 14 il Əmir Teymurun qoşunlarının hücumlarına müqavimət göstərib. Naxçıvanın Azərbaycan Atabəylər dövlətinin paytaxtı olduğu dövrdə Əlincəqalanın iqtisadi və siyasi mövqeyi əhəmiyyətli dərəcədə artıb. Qaladan tapılan sikkələr onun I-VI əsrlərdə yerli hökmdarların əsas iqamətgahlarından biri olduğunu və Mərkəzi Asiya ölkələri ilə əlaqəsi olan qala-şəhər kimi formalaşdığını





təsdiq edir. Həmçinin qala və onun ətrafında olan epiqrafik abidələrin öyrənilməsi bu bölgənin orta əsrlərdə Azərbaycanın mühüm siyasi, sosial və mədəni mərkəzlərindən biri olduğunu göstərir.

Zirvəsində üçrəngli bayrağımızın dalğalandığı Əlincəqalada bərpa işləri heç də asan başa gəlməyib. Müasir tikinti texnikalarından istifadənin mümkünsüz olduğu qalada əl əməyindən geniş istifadə edilib. Qala divarları, bürc və giriş qapıları, qədim yaşayış evləri, təsərrüfat binaları, su hovuzları və təndirlər, səngər və mühafizə yerləri ilkin forması saxlanılaraq bərpa olunub. Bundan əlavə, qalanın zirvəsinə doğru yol çəkilib, qala ərazisində işıqlandırma sistemləri yaradılıb, oturacaqlar qoyulub, yaşıllıqlar salınıb. Naxçıvan memarlıq məktəbinin izlərini özündə əks etdirən qalanın şərq və qərb darvazaları da bərpa edilərək əvvəlki görkəminə qaytarılıb. Qalanın zirvəsinə gedən yolda daş üzərində həkk olunan "Tarixi yaşadanları tarix də yaşadacaqdır" fikri Əlincəqalanın bərpasının muxtar respublikanın həyatında tarixi bir hadisə olduğunu, eyni zamanda xalqımızın çoxəsrlik tarixi-mədəni irsinin gələcək nəsillərə çatdırılması baxımından mühüm əhəmiyyət daşıdığını təsdiq edir. Bu faktı da qeyd etmək yerinə düşər ki, ötən dövrdə ölkə başçısı cənab İlham Əliyevin müvafiq sərəncamı ilə uzunluğu 57,6 kilometr olan Çeşməbasar-Boyəhməd avtomobil yolunun yenidən qurulması Əlincəqalaya turist marşrutlarının rahat hərəkəti üçün geniş imkanlar açır.

Muxtar respublikada 2016-cı ildə bu istiqamətdə həyata keçirilən tədbirlərdən biri də Azərbaycan xatirə memarlığının incilərini özündə əks etdirən Gülüstan türbəsinin bərpasıdır. Əsrlərdir, Arazın sakit axan sularına tamaşa edən, Culfa düzünün qışda sərt soyuğuna, yayda isə qızmar istisinə sinə gərən Gülüstan türbəsi məhz 2016-cı ildə elmi və tarixi əsaslarla bərpa edilərək ziyarətçilərin istifadəsinə verilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 7 oktyabr tarixli Sərəncamına əsasən bərpa edilmiş və 2016-cı il iyunun 30-da istifadəyə verilmiş dünya əhəmiyyətli Gülüstan türbəsinin açılış mərasimində Ali Məclisin Sədri deyib: ***"Gülüstan türbəsinin bərpa edilməsi xalqımızın çoxəsrlik tarixi-mədəni irsinin gələcək nəsillərə çatdırılması və tanıdılması baxımından mühüm əhəmiyyətə malikdir. Gülüstan türbəsi ölkəmizin tarixi abidələri içərisində memarlıq həllinə və həndəsi ornamentlərinə görə seçilir. Buna görə də türbənin bərpası zamanı hər bir detala xüsusi diqqət yetirilmiş, abidənin orijinallığı qorunub saxlanmışdır. Beləliklə, Gülüstan türbəsinə ikinci həyat verilmişdir".***



Qeyd edək ki, Azərbaycanın qülləvarı türbələri sırasına daxil olan və özünəməxsus xüsusiyyətləri ilə seçilən türbə XVI yüzilliyə aid "Çaldıran səfəri ruznaməsi"ndə, XVII əsr türk səyyahı Övliya Çələbinin "Səyahətnamə"sində "Kəsik günbəz", 1815-ci ildə Culfada olmuş Mirzə Saleh Şirazinin "Səfərnamə"sində isə "Tənha bürc" kimi xatırlanır. Gülüstan türbəsinin sərdabəsi "kürsülük" adlanan yerüstü hissədə yerləşir. Kürsülük xaricdən kəsik piramida, daxildən isə silindrik quruluşa malikdir. Planda kvadrat olan kəsik piramida yuxarıda düzgün onikibucaqlıya çevrilir. Onun üzərində isə onikiüzlü üst kamera yerləşir. Türbənin səthləri oyma həndəsi ornamentlərlə və dekorativ tağlarla bəzədilib. Naxçıvan memarlıq məktəbinə məxsus digər türbələrdə olduğu kimi, Gülüstan türbəsində də taxçaların içərisi incə həndəsi ornamentlərlə örtülüb.

Gülüstan türbəsi ətrafındakı abidələrdən əldə olunmuş arxeoloji materiallar, xüsusən də keramika nümunələri, tikili qalıqları istər yaşayış yerinin tarixinin müəyyənləşdirilməsi, istərsə də türbə ilə bağlı elmi araşdırmaların daha dərindən aparılması baxımından mühüm əhəmiyyət kəsb edir. Abidənin yerləşdiyi ərazinin tarixi və mədəni əhəmiyyəti nəzərə alınaraq burada "Gülüstan" Tarix-Mədəniyyət Qoruğu yaradılıb.

Gülüstan türbəsinin açılışından 3 gün sonra, iyulun 4-də Ali Məclisin Sədri tərəfindən növbəti bir sərəncam imzalandı. "Qarabağlar Türbə Kompleksinin bərpası və tədqiq olunması haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamında deyilir: ***"Naxçıvan Muxtar Respublikasının ərazisi xalqımıza məxsus maddi-mədəniyyət nümunələri və abidələrlə zəngindir. Belə abidələrdən biri də Qarabağlar Türbə Kompleksidir. Kəngərli rayonunun Qarabağlar kəndində yerləşən və XII-XIV əsrlərə aid edilən kompleksdən dövrümüzədək qoşa minarəli baştağ və türbə gəlib çatmışdır. Azərbaycan xatirə memarlığının mütərəqqi ənənələrini yaşadan bu abidə memarlıq quruluşuna və oxşar cəhətlərinə görə Əcəmi Naxçıvani memarlıq məktəbinin davamı, memar Əhməd Naxçıvani yaradıcılığının nümunəsidir.***

***Türbə kompleksi göstərir ki, Qarabağlar orta əsrlərdə Azərbaycanın inkişaf etmiş mədəniyyət mərkəzlərindən və böyük şəhərlərindən biri olmuşdur".***

Türbə kompleksində bərpa işləri davam etdirilir. Qeyd edək ki, Qarabağlar Türbə Kompleksi qoşa minarə, onlar arasındakı baştağ, qoşa minarələrə birləşən dini binanın qalıqları və türbədən ibarətdir. Aparılan bərpa işləri zamanı türbə və qoşa minarə hissələri bərpa ediləcək, bunlar arasındakı bölüm, habelə dörd təndir konservasiya olunacaq.

Qarabağlar türbəsi sərdabə və yerüstü xatirə abidəsindən ibarətdir. Sərdabə onikibucaqlı olub, divarları daşdan, günbəzi isə kərpicdən inşa edilib. Türbənin yerüstü hissəsi daş kürsülük üzərində inşa olunan 12 yarımsilindrdən ibarətdir. Türbənin dörd giriş qapısından biri olan əsas giriş qapısı üzərindəki kitabədə müqəddəs "Qurani-Kərim"dən 6 ayə ("Mülk" surəsi) həkk olunub. Bu qapının kənarları çox incə naxışlarla işlənilib. Görüləcək işlər orta əsrlərin yadigarı olan Qarabağlar türbəsinə də ikinci həyat verəcək.

Ötən il bərpa işləri aparılan abidələrdən biri də Xanəgah Abidə Kompleksidir. Türbənin dam örtüyü yenilənib, işçilər üçün otaq yaradılıb, həyət abadlaşdırılaraq yeni işıqlandırma sistemləri quraşdırılıb. Naxçıvan memarlıq məktəbinin daha bir nümunəsi olan abidə XII-XV əsrlərə aid edilir. Arxiv materiallarında Xanəgahın XVIII əsrdə də fəaliyyət göstərdiyi qeyd olunur. Abidənin giriş baştağında Möminə xatın türbəsinin elementlərindən istifadə olunub. Hürufilik təliminin banilərindən olan Fəzlullah Nəimi 1394-cü ildə Əlincədə qətlə yetirildikdən sonra müridləri onun cənazəsini burada dəfn ediblər. Xanəgah uzun müddət yaşayış, ibadət və zikr yeri olub, tarixin müxtəlif dövrlərində isə həm də elm, təhsil və mədəniyyət mərkəzi kimi fəaliyyətini davam etdirib.

*Bəli, yola saldığımız 2016-cı il muxtar respublikada bu tarixi abidələrin bərpası ilə yadda qalacaq. Diqqət etsək görərik ki, bu abidələr heç də sıradan tarixi abidələr deyil. Xanlıqlar kəndindəki "İmamzadə" abidəsi Naxçıvanda İslam dini və mədəniyyətinin formalaşmasını özündə əks etdirən tarixi-dini tikilidir. Gülüstan və Qarabağlar türbələri dünya əhəmiyyətli abidələrdir. Əlincəqala isə Azərbaycanın milli dövlətçilik ənənələrini özündə yaşadan tarixi abidədir. Əlincəqalanın müxtəlif tarixi proseslərdə iştirakı, sadəcə, Naxçıvan və yaxud Azərbaycanla məhdudlaşmır. Eyni zamanda digər sadaladığımız abidələr Naxçıvanın orta əsr tarix və mədəniyyətini özündə əks etdirirsə, Əlincəqalanın tarixi daha qədimlərə gedib çıxır. Bu tarixi abidənin mühüm əhəmiyyətindən irəli gəlir ki, onun haqqında ispan diplomatı, Kastiliya kralı III Enrikonun 1403-1406-cı illərdə Teymurilər dövlətindəki səfiri Rui Qonsales Klavixo, XII əsrdə Həmdullah Qəzvini, XV əsrdə Şərafəddin Əli Yəzdi, XVII əsrdə türk səyyahı Övliya Çələbi kimi tədqiqatçılar fikir bildiriblər. Bir sözlə, görülmüş bu işlər yaxın gələcəkdə Naxçıvana – İslam mədəniyyətinin paytaxtına üz tutacaq çoxsaylı qonaqlara bu abidələri tanıtmaq baxımından məxsusi rol oynayacaq.*

**Səbuhi HƏSƏNOV**

**İtmişdir**

Qasımov Nazim Bilal oğlunun adına olan 0200353162 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

* * *

Musayeva Sevinc Qəzənfər qızının adına olan ümumvətəndaşlıq pasportu itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 30